**Qardaşxan ƏZİZXANLI**
**Xəzər Universiteti**
gardashxan.eziz@gmail.com

# ÇAĞDAŞ AZƏRBAYCAN ŞEİRİNDƏ XALQ ARXETİPİ VƏ XALQ YARADICILIĞI PROBLEMİ

***(Məmməd Araz, Söhrab Tahir, Məmməd İsmayılın yaradıcılığı əsasında)***

**Açar sözlər:** çağdaş, vətəndaşlıq lirikası, xalq, Araz, Söhrab, Məmməd, xalq yaradıcılığı
**Key words:** contemporary, civic lyrics, people, Araz, Sohrab, Mammad, popular art
**Ключевые слова:** современный, гражданская лирика, народ, Араз, Сохраб, Мамед, народное творчество

Yaradıcılıq prosesinin mənəvi-ruhi səviyyəsini təsvir etmək, yaxud izah etmək hər zaman mümkün olmur. Əgər hər hansı bir lirik düşüncə ictimai-siyasi motiv daşıyırsa, demək, həmin şeir şairin vətəndaşlıq mövqeyini təcəssüm etdirir. Buna görə də vətəndaşlıq lirikasının mənbəyi hər şeydən öncə şairin tərənnüm etdiyi xalqdır, millətdir. Milli dəyərlərdən kənarda qalan şair vətəndaş ola bilmədiyi kimi, onun yaratdığı poeziya nümunəsi də vətəndaşlıq lirikasının daşıyıcısı ola bilməz. Vətəndaşlıq lirikasının ilkin qaynağı isə xalq yaradıcılığıdır. Bayatılardan tutmuş qəhrəmanlıq eposlarına qədər elə bir şifahi xalq yaradıcılığı nümunəsi tapmaq olmaz ki, orada milli məzmun, milli kimlik öz əksini tapmasın.

Ali fikir və ideyaların daşıyıcısı olan "Vətəni sevmək imandandır", "Qürbətdə xan olunca, vətənində dilən gəz", "Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı" və s. kimi el deyimlərinin, atalar sözlərinin, bayatıların mahiyyəti, ifadə etdiyi məna və məzmun şairlərimizin vətəndaşlıq lirikasının mayasında dayanaraq, onların yaradıcılığında bu və ya digər şəkildə poetik əksini tapmış və yeni nəslin vətənpərvərlik tərbiyəsində, vətən övladının yaşadığı torpağa bağlanmasında mühüm rol oynamışdır. Şairin ilhamı göylərdə pərvaz etsə də, onun vətəndaşlıq lirikası oxucusunu durduğu torpaq üstə ayağını bərk basmağa çağırıb; vətən geniş və hüdudsuzdur, onun gözəllikləri şairin lirik xəyalları kimi intəhasızdır.

Güneyli, quzeyli çağdaş Azərbaycan şeirində xalq və onun taleyi, taleyüklü problemləri M.Şəhriyar, Savalan, B.Vahabzadə, F.Qoca, X.R.Ulutürk, M.Yaqub, S.Rüstəmxanlı, R.Rövşən və b. şairlərin yaradıcılığında özünü daha qabarıq şəkildə göstərirdi. Həmin dövrdə S.Vurğun, S.Rüstəm, M.Müşfiq lirikasından fərqli bir poeziya meydana çıxdı ki, Məmməd Araz, Söhrab Tahir, Məmməd İsmayıl bu cərgədə ilk adı çəkilməli olan şairlərdəndir.

S.Tahir, M.Araz, M.İsmayıl şeirində mühüm yer tutan "xalq" mövzusu nisbətən daha çox araşdırılsa da, xalq arxetipinin bu şairlərin vətəndaşlıq lirikasında daşıdığı önəm yetərincə elmi təhlil obyekti olmamışdır. Yalnız bəzi tənqidçi və tədqiqatçıların məqalələrində problemə epizodik şəkildə toxunulmuşdur. Akademik İsa Həbibbəylinin "Xalq şairi Məmməd Araz: böyük sənətlə şəxsiyyətin vəhdəti" [1, s. 5] məqaləsində şair yaradıcılığının ədəbi qaynaqları və mənbələri, onu sələfləri ilə bağlayan mənəvi tellər, ədəbi nəsillər arasında estetik münasibətin xarakteri göstərilir.

Yalnız M.Arazın xalq poeziyası ilə bağlılığını vurğulayan filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva yazır: "Xalq dilinin, həyatının sadə təravəti M.Araz poeziyasında dünyanın Şərq və Qərb poeziyasına tanışlığından sonra belə, yenə bütün münasibətlərin fövqündə xalq poeziyasına qayıdışın üzərində dayanır. Anasından eşitdiyi bayatıların axıcılığı, ritmi, aşıq şeirləri, dastanların yaddaşlara köçmək axıcılığı poeziyasının yaradıcı üslubuna çevrildi" [2, s. 10].

Yaxud S.Tahir yaradıcılığından danışan Gülhani Pənah, Vaqif Arzumanlı və digər ədəbiyyatşünaslar şairin şeirlərindəki sözügedən cəhətə toxunmayıblar. Lirikası təhlil obyektimiz olan digər çağdaş Azərbaycan şairi M.İsmayıl yaradıcılığı barəsində də eyni fikri söyləmək olar.

S.Tahir lirikasında daha çox "xalq" lek-

semi arxetipləşib. Baxmayaraq ki, S.Tahirin "Vətən", "Danışır Vətən", "Savalan", "Ərdəbil", "Ərk qalası", "Urmiya gölü" və s. şeirlərində tərənnüm, təsvir, ya da poetik müraciət obyekti olaraq bilavasitə vətən və vətənin bir parçası götürülmüşdür.

Bununla belə, S.Tahirin ən çox "Xalq" şeiri onun "Daha" adlı məşhur poetik nümunəsi kimi şairin bütün yaradıcılığı üçün leytmotiv sayıla bilər.

*Hamı xalq adından danışsın, ancaq*
*Xalqın inamına inamı varsa.*
*Dünyada ən güclü adam olacaq*
*Kim onu özünə inandırarsa [3, s. 33].*

Bütövlükdə şeirin ideyası insanı düşündürür, müəllifin hər beytində poetik arqumenti ilə oxucunu inandırır. Şairin şeirdə diktə etdiyi fikrin özü gücə, enerjiyə çevrilib, qanla birgə damarlarda dövr edir. İnanırsan ki, həqiqətən də, xalqına güvənən və xalqın güvəndiyi insan güclüdür. Burada şairin poetik təhkiyəsi də təbii təsir bağışlayır. Müəllif dediyinə özü sidqiürəkdən inanır və bizi də inandırır.

Şeirin sonrakı bəndləri bu leksemin semantikasını daha da dərindən açır, mahiyyətini ortaya qoyur, eyni zamanda, bütün bunlar poetik dillə verildiyindən xalq obraza çevrilir. Şair öz müşahidələrində səmimi təsir bağışlayır. Şairin təbirincə desək, xalqı soyub-talayanlar, pis günündə elə köməyə xalqı çağırır. Çətinə düşəndə hamı boğazacan bu "səngər xalq"ın içində gizlənir, amma elə həmin adamlar da iş, vəzifə alanda onu ucaldan xalqa yuxarıdan aşağı baxır, hətta, ona minnət vurmaqdan, qəzəblənməkdən çəkinmirlər:

*Xalq ümid deməkdir, gələcək demək,*
*Ümidsiz nə varsa, ondan uzaqdır.*
*Dünyada hər bir şey ölüb gedəcək*
*Heç zaman ölməyən dünyada xalqdır*
*[3, s. 33].*

S.Tahir "arzusu, ümidi, düşüncəsi, hətta, pıçıltısı, zənni belə haqq" olan xalqın böyüklüyünün ölçüyə gəlmədiyini, xalqın dünyada ən böyük dahi olduğunu dilə gətirir, poetik bir məntiqlə: *"Çünki nə yaratsa, o da xalq olur"* [3, s. 33] deyə xalqın özündən böyüyünü yarada bilmədiyini söyləyir. Ancaq nadan münasibət şairi üzür, bir çoxlarının xalqa yuxarıdan aşağı baxması, "çiynindən aşağı duran kiçik adamları xalq bilməsi" onu incidir. Şairin düşüncəsinə görə, əslində, "xalq" deyəndə, insan aşağı yox, yuxarı baxmalıdır:

*Xalqı görmək üçün xalqdan uca yox,*
*Sən xalqdan aşağı durasan gərək [3, s. 34].*

Yuxarıda deyildiyi kimi, əgər xalq mövzusuna S.Tahirin bir neçə şeiri həsr olunubsa, başqa sözlə, ayrı-ayrı şeirlərdə bu mövzu bütöv, külçə şəklindədirsə, Məmməd Arazda xalq, millət anlayışı modifikasiya edilir, formaca çox şəkillidir, şeirləri boyunca səpələnmişdir. Belə ki, əslində, M.Arazın "Nobel mükafatı", "Professor Gülə məktub", "Nişançı özümüz, hədəf özümüz", "Ata millət, ana millət, ağlama", "Azərbaycan – dünyam mənim" kimi neçə-neçə şeirində əsas obraz xalqdır. M.Araz poeziyasında S.Tahir yaradıcılığında olduğu kimi, lirik "mən" xalqla müqabil tərəf olaraq bilavasitə həsb-halda deyil. M.Araz şeirində xalq "poetik səhnədə" üzdə yox, pərdə arxasındadır. Oxucuya görünmür və sanki əsas rolda deyil, amma bunsuz da "poetik tamaşa" heç cür baş tutmazdı.

"Oxuyan Təbriz" şeirində Təbriz Azərbaycanın, Azərbaycan xalqının simvolu olaraq mənalanır:

*Ağlasa, ağlardı ildırım kimi,*
*Gurşad saçı yolan sıldırım kimi,*
*Qapıb şimşəkləri bir şırım kimi*
*Nəğmə toxuyurdu dağlar başında,*
*Təbriz oxuyurdu dağlar başında.*

*...Gərək dil susanda əllər danışa,*
*Əllər bağlananda dillər danışa,*
*Elə danışalar ellər danışa...*
*Dəli gülüşlərim ağlar başımda,*
*Təbriz oxuyurdu dağlar başında [4, s. 269].*

İkiyə bölünmüş, iki əsrdir bir-birindən ayrı düşmüş və dəli gülüşlərlə oxuyub-ağlayan ("Ağlar–güləyən" təxəllüsü ilə yazan M.Ə.Sabiri yada salaq) Təbriz – "qayalarda bitən bir çiçək... çiçəklərin işində qaya" olan Azərbaycan xalqıdır.

Əgər M.Arazın *"Kimin alın təri, ürək qanını Mükafat verirsən kimin adından",* [4, s. 40] deyə poetik etirazını gördüyümüz "Nobel mükafatı" şeirində Azərbaycan haqqı tapdanan

xalq obrazındadırsa, şairin "*Sağıb, sorub, Sonra yorub qısır inək kimi, Biz onu satmaq istəyirik, Ölü dənizlər muzeyinə atmaq istəyirik"* [4, s.135] poetik harayı ilə sərgilənən "Professor Gülə məktub", *"Qorxuram haqq bizə arxa çevirə; ...Xalq öz qəzəbini xalqa çevirə... Seçək "biz" olandan "biz" olmayanı... Bir süfrə başında iki sözümüz Bir ola bilmirsə, ta nəyik belə?.. Biz niyə bu günə düşdük, ay dədə?!* ("Nişançı özümüz, hədəf özümüz"; [4, s. 582])" poetik xatırlatmaları, *"Qorxuram ki, sına millət, ağlama"* ("Ata millət, ana millət, ağlama"; [4, s. 591]) poetik qorxusu, *"Bu millətə nə verdik ki?"* [4, s. 590]) poetik sorğu-sualı, *"Səninləyəm, yatmış vulkan, səninləyəm"* ("Ayağa dur, Azərbaycan!" [4, s. 596]) kimi poetik "silkələmə"si, nəhayət, *"Töküb namusunu it qabağına Düşmən qabağından qaçan "kişilər"* [4, s.604] poetik "silləsi" ilə xalqın özü– lirik "mən" məhşər ayağına çəkilir və ittiham obyektinə çevrilir. Həmçinin, "Vətən, mənə oğul desə", "Bu millətin dərdi-səri", "Əsgər oğlu", "Ya rəbbim, bu dünya sən quran deyil", "Məndən ötdü, qardaşıma dəydi", "Babək qılıncı", "Qoruyun dünyanı" kimi şeirlərdə müəllif sətiraltı olsa da, xalqa üz tutur, bu şeirlərin qəhrəmanı, əslində, xalqdır:

*Azərbaycan– mayası nur, qayəsi nur ki...*
*Hər daşından alov dilli ox ola bilər.*
*«Azərbaycan» deyiləndə ayağa dur ki,*
*Füzulinin ürəyinə toxuna bilər, – [4, s. 272]*

*"Mən oddan törəmiş nar dənəsiyəm" [5, s. 317], –* deyən M.İsmayılda da M.Araz şeirində olduğu kimi, əksər halda "xalq" məfhumu vətən "pərdəsi"nin arxasından boylanır:

*Mənim pisliyim də, yaxşılığım da*
*Sənin ayağına yazılır, Vətən... [5, s. 317]*

Bu misralar məgər lirik "mən"in vətəni ilə bərabər xalqına da aid deyilmi?

Bu kontekstdə M.İsmayıl "Gözümü açanda gördüm Arazam" adlı şerində yazır:

*Birlik arzusuyla oyanar hər gün*
*Bir ömrü beş yerə bölünən Vətən... [5, s. 332]*

Yaxud:

*Gözümü açanda gördüm Arazam,*
*Yarım bu taydadır, yarım o tayda... [5, s. 332]*

Əlbəttə, şairin Güneyli, Quzeyli vətəninin bu qəmli poetik rəsmi xalqın portretidir. "*Bir ömrü beş yerə bölünən*" həm də şairin xalqıdır ki, o da eyzən*"Birlik arzusuyla oyanar hər gün"*və bu xalqın yarısı "bu tayda", yarısı da "o tayda" əsrlərin ayrılıq əzabını yaşayır.

M.Araz, S.Tahir və M.İsmayılın lirikası həm forma, həm məzmun cəhətdən xalq yaradıcılığından gəlmə elementlərlə də zəngindir. Bu şairlərin bədii irsində xalq yaradıcılığı problemi tamamilə yeni kontekstdə təsvir edilir. Folklordan, şifahi xalq ədəbiyyatından – qəhrəmanlıq dastanları və qəhrəmanlıq nağıllarından, bayatılar və əmək nəğmələrindən, daha çox aşıq ədəbiyyatına xas qoşma və gəraylılardan gələn poetik ştrixlər hər üç söz ustasının ədəbi irsində üstünlük təşkil edir. Şifahi xalq ədəbiyyatından ən çox qaynaqlanan da bu şairlərin vətəndaşlıq lirikasına aid şeirləridir. Onlar xalq yaradıcılığından özünəməxsus şəkildə bəhrələnmişlər və onların vətəndaşlıq lirikasında bu baxımdan oxşar və fərqli cəhətlər mövcuddur. Belə ki, bu tip poetik nümunələr sözügedən şairlərin ən yaxşı şeirləri sırasında olmaqla onların yaradıcılığında həm forma, həm məzmun cəhətdən xüsusi əhəmiyyət kəsb edir.

M.Arazın "Məmməd Aslana" adlı məşhur şeiri aşıq poeziyasının bir növü olan qoşma formasında yazılmışdır:

*...Bəxtimə bir yazı qurumu dəydi,*
*Taxtıma iki əl qırımı dəydi,*
*Gözümə bir Araz şırımı dəydi,*
*Yüz Araz töküldü gözümdən mənim*
*[4, s. 150].*

*"Yazı qurumu"* deyərkən, Gülüstan, Türkmənçay müqavilələrini nəzərdə tutan şair *"Taxtıma iki əl qırımı dəydi"* ifadəsində İran və Rusiyanın Azərbaycanı Araz çayı sərhəd olmaqla öz aralarında bölməsini ürək ağrısı ilə və poetik rəmzlərlə oxucusuna çatdırır.

M.Arazın məşhur *"Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim" [4, s. 280]* beyti ilə məşhur olan şerində ənənəvi qoşma janrının qaydaları pozulmuş olsa da, əslində, forma etibarilə bu şerin də mayasında "qoşma"nın dayandığı görünür.

Bundan əlavə, M.Araz lirikasında "Kitabi-Dədə Qorqud" eposuna istinadlar var ki, bu istinadlar, həqiqətən də, poetik fikrin qüvvət-

lənməsinə çox xidmət edir.

Məmməd Arazın şifahi xalq yaradıcılığına, folklora bağlılığı təkcə vətəndaşlıq lirikasında özünü göstərmir. Bu bağlılıq bütövlükdə M.Araz yaradıcılığına xas olan bir hadisədir. Belə ki, şairin qoşma və gəraylı formasında yazılmış *"O qızı görəndə bulaq başında Qəlbimdə kükrəyən bulağı gördüm" [6, s. 112], "Bəlkə bu yerlərə bir də gəlmədim, Duman, salamat qal, dağ, salamat qal" [4, s. 84], "Səndən mənə bir ömürlük xatirə, Məndən sənə nə qalacaq, nə bilim" [4, s. 256], "Ana yurdum hər daşına üz qoyum, Hər dərəndə çaldığım saz yaşayır" [4, s. 287], "Nə erkən sənə dən düşdü, Ağarma saçım, ağarma! [4, s. 27]"* beytləri ilə başlayan "Bulaq başında", "Əlvida, dağlar", "Nə bilim", "Ana yurdum...", "Ağarma saçım, ağarma!" və s. bu kimi neçə-neçə şeri ruh, dil etibarı ilə olduqca xəlqi və ürəyə yatımlıdır, bir xalq mahnısı kimi bu gün də aşıq və xanəndələrimiz tərəfindən oxunmaqdadır.

Ədəbiyyatşünas Cəlal Abdullayev də Məmməd Arazın vətəndaşlıq lirikasında məhz xalq və aşıq yaradıcılığının janrlarından sayılan bayatı, gəraylı, qoşma formalarında yazılmış çoxlu nümunələr olduğunu nəzərdə tutaraq yazmışdır: "M.Araz poeziyasını illər keçdikcə xalq şeir nümunələri kimi durula-durula, cilalana-cilalana özünün müasir və aktual ruhu, məzmunu və xəlqi mahiyyəti ilə gələcəkdə yaşamağa qadir ola biləcək poetik bir istiqamət kimi qiymətləndirmək mümkündür" [7, s. 225].

*"Mən vətən deyirəm, gözlərim dolur, Məgər sən göz yaşı olmusan, vətən?!", [8, s. 231]* deyən vətən həsrətli şair Söhrab Tahirin vətəndaşlıq lirikasını əhatə edən şeirlərinin böyük bir qismi *qoşma* şəklindədir ("Düşdü", "Oyandı", "Mənim", "Görmüşəm", "Oldu" və i.a.):

*Azadlıq çağırdım hər addımbaşı,*
*Bu yolda durmuşam dünyaya qarşı,*

*Azadlıq eşqimlə daim yanaşı*
*Beş qulac sabunlu kəndir görmüşəm*
*[8, s. 441].*

"Savalan" şeiri xalq şeiri üslubunda yazılmış poetik mətnlərindən biri kimi diqqəti cəlb edir. Şair həsrət qaldığı doğma vətəninin simvolu tək tərənnüm etdiyi,– qayasından salxımşüşə buz kimi sallanmaq və quzu olub daşlarını duz kimi yalamaq istədiyi, zehli, düyün, kəmər, çil qayalı, *"bal pətəyi siz taya, şəlaləsi biz taya" [5, s. 293]* olan, *"Nə olacaq, görən bizim Bu dağların axırı, Dağlar var ki, bir ağrıdan Dünya boyu bağırır", [5, s. 294]* deyərək *"...dünya dağlarının ən gözəli, ağırı.., ağsaqqalı, fağırı" [5, s. 294]* bildiyi Savalan dağına əli çatmadığı xalqından muğayat olmağı tapşırır. Belə bir formanın (gəraylı ilə bayatı sintezinin) şeirə gətirdiyi gözəllik isə obrazlılıqla birləşib göz oxşayır:

*Duman olsam, qarış-qarış*
*Biçilərəm boyuna.*
*...Günəş olsam, çevrilərəm*
*Sənin çiçək toyuna,*
*...Çiçək- çiçək, ətir- ətir*
*Dol ruhuma, beynimə.*
*Mən qalmadım, heç olmasa*
*Sən qal xalqın qeydinə,*
*Savalanım, Savalan [5, s. 294].*

Keçmişə müraciət, folklora meyil yaxın sələflərinə rəğmən M.İsmayılın vətəndaşlıq lirikasında daha qabarıqdır.

"Koroğlu nərə çəkir" ("Xəzri gilavar arası" şeiri), "Bu sənin ömrünün Koroğlu dövrü" ("Bir də keçməyəcək ələ bu anlar" şeiri) kimi ifadələr M.İsmayılda çoxdur. Bu kontekstdə şairin, xüsusilə də, "Babaların əmək nəğmələri" silsiləsindən olan şeirləri diqqəti çəkir. "İşlə, kotanım, işlə", "Xırman aç, vəli sazla", "Dən gətir hey, dən gətir", "Ah, bu saralan zəmilər" və b. belə şeirlərdəndir.

"İşlə, kotanım, işlə" şeirində qədim əmək nəğmələrindəki xəlqiliyi və axıçılığı görürük*:"Dədə Qorqud saz tutar, İşlə, kotanım, işlə! El-oba avaz tutar, İşlə, kotanım, işlə! [5, s.340]*"

Koroğlu nərəli yurdu öyən şair Vətənin Kür çayını onun Misri qılıncı kimi mənalandırır. Amma yolumuzda hələ keçəl Həmzələrlə mübarizənin də qaçılmaz olduğunu göstərir:

*...Qırat da bir atıydı,*
*Təpələrdən yel kimi,*
*Dərələrdən sel kimi*
*Yolların qanadıydı.*
*...Hələ keçilməz bərə,*
*Hələ keçəl Həmzə var [5, s. 351].*

Əzizləmələr *("Dağda darılar, Sünbül saralar, Qoca qarılar Bu balama qurban")* for-

masından M.İsmayıl özünəməxsus şəkildə bəhrələnir: *"Mərdlik nişanı, Eşqin əzəli, Əsrdən əsrə At üstə gəlib. Koroğlu burda Nərə çəkibdir, Misri qılıncı Kürə çəkibdir" [5, s. 350].*

Beləliklə, yazılanlardan belə qənaətə gəlmək olar: 1) M.Araz, S.Tahir və M.İsmayılın vətəndaşlıq lirikasının mənbə və qaynaqları elmi şəkildə öz həllini gözləyən məsələlərdəndir. 2) M.Araz, S.Tahir və M.İsmayıl lirikasında "xalq" mövzusundan və folklordan bəhrələnmənin forma və şəkilləri müxtəlifdir. Bu müxtəliflik də onların vətəndaşlıq lirikasına spesifik, fərqli ton verməkdə xüsusi rolunu oynayır. Ancaq bu özünəməxsusluq və fərqlilik hər üç şairin lirikasında "xalq" mövzusu və xalq yaradıcılığından qaynaqlanan ümumi bir klassik tonun olması ilə tərs mütənasib deyil. M.Arazla M.İsmayıl lirikasında əksər halda "xalq" məhfumu "vətən" məhfumu ilə uğurla əvəzlənir. S.Tahir şeirində də bu tendensiya mövcuddur, amma, eyni zamanda, həm də hər şey "öz adı ilə çağırılır".

**ƏDƏBİYYAT**


1. Məmməd Araz: taleyi və sənəti. Naxçıvan, "Əcəmi", 2014.
2. Haqqın var yaşamağa (Məqalələr toplusu). Bakı, "OL" MMC, 2013.
3. Tahir S. Mən səni görmüşəm. Bakı, "Gənclik", 1967.
4. Araz M. Seçilmiş əsərləri (Şeir və poemalar). Bakı, "Xalq Bank", 2010.
5. İsmayıl M. 70-dən sonra (Şeirlər). Bakı, "Elm və təhsil", 2014.
6. Araz M. Seçilmiş əsərləri (Şeirlər, poemalar). Bakı, Azərnəşr, 1986.
7. Abdullayev C. Əsərləri. 7 cilddə, V c. Bakı, "Elm və təhsil", 2012.
8. AzərAzər S.T. Əsərləri, I c. (Şeirlər). Bakı, "Zərdabi LTD", 2012.


**Gardashkhan Azizkhanli**

**THE PROBLEM OF FOLK ARCHETYPE AND FOLK ART IN CONTEMPORARY AZERBAIJANI POETRY**
***(Based on Mamma Araz, Sohrab Tahir and Mammad Ismayıl's activities)***

**SUMMARY**

Article displays people whom poet glorifies and belongs to as the source of civic lyrics. It is noted that poet beyond national values cannot be a citizen. M.Araz, S.Tahir and M.Ismayıl's lyrics is analyzed and compared namely in this context and explored scientifically. It is displayed that M.Araz, S.Tahir and M.Ismayıl's activities are not explored in the context of folk theme (archetype) and our folklore, this theme is the one of those that remains to be solved. The article can be considered among initial steps taken in this direction.

Reference to folk heroes, esteem to totems emerge in the article as key quality of M.Araz, S.Tahir AzerAzer and M.Ismayıl's lyrics.

**Гардашхан Азизханлы**

**ПРОБЛЕМА АРХЕТИП НАРОДА И НАРОДНОГО ТВОРЧЕСТВА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ**
***(на основе творчества Мамеда Араза, Сохраба Тахира, Мамеда Исмаила)***

**РЕЗЮМЕ**

В статье в качестве источника гражданской лирики указывается на принадлежность к национальности народа, воспеваемого поэтом. Отмечается, что поэт, оставшийся в стороне от национальных ценностей, не может быть гражданином. Лирика М.Араза, С.Тахира и М.Исмаила, проанализированная и сравненная именно в данном контексте, исследуется в научном плане. Указывается, что творчество М.Араза, С.Тахира АзерАзера и М.Исмаила не исследовано в контексте темы архетипа народа как первоисточника гражданской лирики и нашего фольклора, эта тема является одной из ожидающих своего применения с научной точки зрения. Статья может считаться одним из первых шагов, предпринятых в данном направлении.

В статье в качестве основного качества лирики М.Араза, С.Тахира АзерАзера и М.Исмаила, выходит на передний план обращение к народным героям, уважение к тотемам.